# Gender probleminə münasibətdə ailə mühitinin rolu

**Qızxanım Nizaməddin qızı Qəhrəmanova**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının müdiri,*
*psixologiya üzrə elmlər doktoru*
**E-mail:** mehriban_ismayilova_1962@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d., R.T. Rzayeva

**Açar sözlər:** gender, şəxsiyyət, ailə, qərar, mühit, cəmiyyət, insan
**Ключевые слова:** пол, идентичность, семья, решение, среда, общество, человек
**Key words:** gender, identity, family, decision, environment, society, people

Müasir dövrdə yeni yaranan və diqqəti cəlb edən elmlər sırasında «Gender» xüsusi əhəmiyyətə malikdir. Bu elmi istiqamət XX əsrin 70-ci illərində Qərbi Avropada meydana gəlmişdir. "Gender" ingilis sözü olub, mənası «soy», «cins» deməkdir. Azərbaycanda bu elmi istiqamət XX əsrin sonlarında yaranmışdır. Demokratik cəmiyyət quruculuğu zamanı insan hüquq və azadlıqları həmişə önəmli məsələ kimi ictimaiyyətin qarşısında durmuşdur. Cinsindən asılı olmayaraq bütün insanların fəal şəkildə vətəndaş cəmiyyətinin qurulmasında iştirak etməsi çox vacib amillərdən biridir. Qadınların da kişilərlə bərabər olaraq qərarların qəbul edilməsi prosesində iştirak etməsi, ictimai-siyasi həyatda fəaliyyət göstərməsi, rəhbər vəzifələrə irəli çəkilməsi cəmiyyətdə yaranmış disbalansı aradan qaldırılmasına gətirib çıxarar və beləliklə, insanlara cinsinə görə deyil, onların imkan və bacarıqlarına görə qiymət verilir.

Cəmiyyətdə kişi və ya qadın olmaq yalnız bu və ya digər anatomik xüsusiyyətlərə sahib olmaq deyil, həm də cəmiyyət tərəfindən müəyyən edilmiş bu və ya digər gender rolunu icra etmək deməkdir.

Gender - qadın və kişinin cəmiyyətdəki sosial rolunu və vəziyyətini təyin edən sosial model kimi cəmiyyət tərəfindən təşkil edilir. Bütün bu fikirləri nəzərə alıb, «Genderə» belə tərif vermək olar ki, gender qadın və kişilərin sosio-mədəni mühitdə qarşılıqlı münasibətlərini öyrənir. Anlayışın cəmiyyətdə yeni-yeni işləndiyi zamanlarda insanların bir çoxunda yanlış təsəvvürlər formalaşmışdı, gender bərabərliyi dedikdə qadınlara kişilərdən daha çox imtiyazların verilməsi, qadın və kişilərin hüquqlarının eyniləşdirilməsi başa düşülürdü. Lakin yuxarıdakı tərifdən də görünür ki, gender bərabərliyi kişilərlə qadınların bərabər əsasda cəmiyyətdə qarşılıqlı fəaliyyətləri nəzərdə tutulur.

Bəşər tarixi gender bərabərliyi uğrunda əzmkar mübarizələrlə zəngindir: sivil insan cəmiyyəti formalaşandan öz təbii hüquqları uğrunda əzmkar mübarizə aparan zərif cinsin nümayəndələri bu yolda ən müxtəlif çətinliklərə, psixoloji-mənəvi baryerlərə mətinliklə sinə gərib, ictimai həyatın ən müxtəlif sahələrində kişilərdən heç də geri qalmadıqlarını, müəyyən sahələrdə hətta onları üstələdiklərini əməllərində göstəriblər. Gender bərabərliyi olan cəmiyyət – qadın və kişinin bərabər üzv olduğu cəmiyyətdir.

Belə cəmiyyətdə kişi və qadınların hüquqları bərabər səviyyədə müdafiə olunur. Gender bərabərliyi uğrunda hərəkat ötən əsrin ikinci yarısından etibarən bütün dünyanı əhatə etməyə başlayıb. Problemin miqyası və aktuallığı hətta dünyanın siyasi atmosferini müəyyənləşdirən Birləşmiş Millətlər Təşkilatı (BMT), ATƏT, Avropa Şurası kimi mühüm təşkilatları da bu istiqamətdə səyləri gücləndirməyə sövq edib. BMT 1952-ci ildə "Qadınların siyasi hüquqları

haqqında", 1962-ci ildə "Nikaha daxil olma, nikaha daxil olmaq üçün minimal yaş həddi, nikahların qeydə alınması haqqında", 1979-cu ildə isə "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" konvensiyaları qəbul edib. Bu sənədlərdə siyasi və dövlət əhəmiyyətli qərarların qəbulu prosesində qadınların kişilərlə balanslaşdırılmış iştirakının təmini sahəsində hökumətlərin məsuliyyəti və rolu əksini tapıb. BMT Baş Assambleyası 1975-ci ildən 1985-ci ilə qədər olan dövrü "Qadın hüquqlarının onilliyi" elan edib. 1975-ci ildən sözügedən təşkilatın təşəbbüsü ilə Mexiko, Kopenhagen, Nayrobi və Pekində qadınların statusuna həsr olunmuş dörd qlobal konfrans təşkil edilib. Bu konfranslar beynəlxalq ictimaiyyətin diqqətini cinslər arasında qeyri-bərabərlik probleminə yönəldib (2).

Azərbaycan xalqı da tarixən özünəməxsus dəyərlərə, adət-ənənələrə bağlı olan yüksək zəkalı, nəcib və xeyirxah xanımları ilə qürur duyub, ana adını uca tutub, qadına dərin hörmət, ehtiram və məhəbbətlə yanaşıb. Xalqımızın qəlbən tapındığı islam dinində də qadına, qıza və anaya yüksək ehtiram və hörmət ifadə edilib. Azərbaycan qadını mənəvi-əxlaqi keyfiyyətləri ilə daim seçilib, xalqın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynayıb. Xalq yaradıcılığı nümunələrində, qədim rəvayət və dastanlarımızda yüksək mənəvi sifətlərlə səciyyələnən kamil qadın obrazlarının bədii təsviri verilir.

Azərbaycan gerçəkliyi şair və mütəfəkkirlərə qadınları həyat mənbəyi və müdriklik mücəssəməsi kimi vəsf etmək üçün zəngin tarixi material verib. Tarixin konkret dövrlərində Sara xatun, Nüşabə, Nigar, Həcər kimi qadınlar mərdlik, şücaət, qəhrəmanlıq mücəssəməsi kimi qəbul edilmiş, at çapıb, qılınc oynadıb, döyüş meydanlarında kişilərin yaxın silahdaşları, arxa-dayağı olublar. Eyni zamanda ana kimi, evin qadını kimi öz rollarını da icra ediblər. Azərbaycan qadını XX əsrdə bir neçə əsrə bərabər inkişaf yolu keçib. 1919-cu ildə Azərbaycanda, müsəlman aləmində ilk dəfə olaraq, qadınlara seçki hüququ verilib. Yəni Azərbaycanda qadınlara bu hüquq ABŞ-dan bir il əvvəl, bir sıra Qərbi Avropa ölkələrindən neçə onillik əvvəl verilib. Hələ əsrin əvvəllərində bir çox Şərq ölkələrində olmayan qızların təhsilə cəlb olunması nəzərə çarpacaq dərəcədə artır. Xalqın maariflənməsi, mədəniyyətimizin yüksəlişi və müasir iqtisadiyyatımızın qadınlar daim yüksək peşəkarlıq və fədakarlıq nümayiş etdirib. Cəmiyyətimizdə qadınlara göstərilən yüksək ehtiram mədəniyyət, elm, təhsil, səhiyyə və digər istiqamətlərdə onlara bilik və bacarıqlarını gerçəkləşdirmək üçün əlverişli zəmin yaradır.

Tarixən olduğu kimi, müasir dövrdə də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsində, siyasi-hüquqi, sosial-iqtisadi sahələrdə və beynəlxalq münasibətlərdə yeni uğurların əldə olunmasında kişilərlə yanaşı, qadınlarımız yüksək təşəbbüskarlıq və fəallıq göstərirlər. Cəmiyyətin ictimai-siyasi həyatında və idarəetmə sistemində fəal mövqe tutan qadınlar müstəqil respublikamızın daha da inkişafı, dövlətçilik ənənələrinin möhkəmlənməsi naminə əzmlə çalışırlar. Bu fəallıq, Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən – qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir.

Ulu öndər Heydər Əliyev müdrik dövlət rəhbəri, fenomenal idarəçi olmaqla respublikaya rəhbərliyi dövründə milli maraq və mənafelər çərçivəsində qadınlarla bağlı dövlət siyasətini təmin edərək Azərbaycan qadınının şərəfli adının daim uca tutulmasına çalışıb. Azərbaycanda gender siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsinin hüquqi əsasını məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi altında 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycanın Konstitusiyası təşkil edir. Beynəlxalq hüquqi aktlarda və konvensiyalarda əksini tapmış əsas insan hüquq və azadlıqlarının geniş şəkildə təsbit olunduğu bu Konstitusiyada qadınların cəmiyyət həyatındakı yeri və rolu, qadın siyasətinin fundamental

prinsipləri də əksini tapmışdır.

Konstitusiyada gender məsələsi ilə bağlı bütün problemlərin qanunvericilik və hüquq tətbiqi səviyyəsində qarşısının alınması üçün zəruri hüquqi baza mövcuddur. Azərbaycan Respublikası bir sıra mühüm beynəlxalq paktlara, sazişlərə qoşularaq bu sahədə qanunvericiliyini təkmilləşdirmək imkanı əldə edib. Bu müddətdə respublikamız BMT-nin müvafiq konvensiyalarına imza atıb. Ulu öndər Heydər Əliyevin 1998-ci il 14 yanvar tarixli fərmanı ilə gender siyasətinin həyata keçirilməsi məqsədilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Müstəqil respublikamızda qadın hüquqları bu gün də etibarlı şəkildə qorunur, yüksək səviyyədə müdafiə edilir.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 fevral tarixli sərəncamı gender sahəsində vahid dövlət siyasətini həyata keçirən komitənin adı dəyişdirilmiş, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi yenidən formalaşdırılmışdır. Bu təşkilatın ümumən Cənubi Qafqazda gender sahəsində fəaliyyət göstərən yeganə dövlət strukturu olduğu da xüsusi qeyd olunmalıdır. 2006-cı ilin dekabrında Milli Məclisdə qəbul olunmuş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu da respublikamızda qadınların hüquqlarının etibarlı müdafiəsi baxımından mühüm əhəmiyyətə malikdir. Qanunda gender balansının qorunması ilə bağlı hüquqi tənzimləmə mexanizmi öz əksini tapıb. Son 26 ildə Azərbaycanda davamlı və sürətli artım müşahidə olunur, çünki ölkənin iqtisadi, maliyyə və sosial vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşıb. Hazırda ölkədə savadlılıq səviyyəsi 99 faizə bərabərdir. Qadınlar arasında məktəblərə qəbul göstəriciləri 99,8-100 faiz təşkil edir. Bu gün ucqar rayonlardan təhsilə cəlb olunan və təhsilini ali məktəb səviyyəsində davam etdirnə qızların sayı günü-gündən çoxalır (3).

Bu qədər gender bərabərliyinin təbliğ olunduğu bir zamanda nə səbəbdən hələ də məsələyə fərqli münasibətlər mövcuddur? Müşahidələr göstərir ki, Gender fərqlərinə münasibət şəxsiyyətin böyüdüyü evdə qərar qəbuletmə formaları, ailədaxili münasibətlərin əsasını təşkil edən gender səlahiyyətlərinin dinamikasından asılıdır (1).

Bununla bağlı tələbə qruplarında sorğular apardıq və məlum oldu ki, onların çoxu uşaq ikən böyüdükləri evlərdə əksər hallarda qərarı əsasən atalarının qəbul etdiyini bildirdi. Çox az bir hissəsi isə qərarların birgə qəbul edildiyini, ananın da bu prosesdə iştirak etdiyini bildirmişdir. Təbii olaraq qərarların valideynlərdən biri- məhz ata tərəfindən qəbul edildiyini iddia edən tələbələrin sayı çox idi. Məsələn, əksəriyyət bildirirdi ki, onların bacılarının və qardaşlarının təhsil alması ilə bağlı son söz ataya məxsusdur. Lakin gender fərqləri burada da özünü göstərmişdir. Belə ki, oğlanların təhsil alması və peşəseçimi ilə bağlı qərarlarda gənclərin özlərinin də fikirləri nəzərə alınmışdır. Lakin qızların peşəseçimi məsələsinə gəlincə, cəmiyyətdəki stereotiplərə görə yenə də müzakirə edilərək son sözü atalar demişdir. Ümumiyyətlə bu məlumatlar ailə daxilində ənənəvi gender səlahiyyətləri dinamikasını özündə əks etdirir. Qadınların daha çox iştirakını nəzərdə tutan sahələri, məsələn, uşağın sağlamlıq məsələlərini istisna etməklə, kişilər qərar qəbuletmənin tələb olunduğu bütün sahələrdə ənənəvi olaraq daha böyük təsirə malikdirlər.

**Məqalənin aktuallığı.** Gender probleminə münasibət ailədən formalaşır. Bu mənada məqalənin bu məsləyə həsr olunması aktualdır.

**Məqalənin elmi yeniliyi.** Gender probleminə münasibətdə ailədəki ər-arvad arasındakı münasibətlərin, onlar arasında vəzifə bölgülərinin rolu vurğulanır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və xüsusilə orta məktəb müəllimləri, magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1.Ə.Ə.Əlizadə, Ə.S.Bayramov. Psixologiya. Bakı, 2008.

2.Kişilərin gender bərabərliyinə münasibətinə dair Tədqiqatın (IMAGES) nəticələri üzrə Hesabat. "Promundo" Beynəlxalq təşkilatın Sosial Tədqiqatlar üzrə Beynəlxalq Mərkəz (STBM) Bakı, Azərbaycan, 2018.

3.www.wikipedia.org

**К.Н. Кахраманова**

## Роль семейной среды по отношению к гендерной проблеме

## Резюме

В статье приведены сведения о происхождении и значении пола. Гендерное равенство подчеркивает, что мужчины и женщины одинаково взаимодействуют в обществе. Отмечается, что с точки зрения гендерных вопросов, растущая семейная среда играет ключевую роль в процессе принятия семейных решений. Подчеркивается значение женщин в азербайджанском обществе.

**Q.N. Qahramanova**

## The role of the family environment in addressing gender issues

## Summary

The article provides information on the origin and meaning of gender. Gender equality emphasizes that men and women interact equally in society. It is noted that in terms of gender issues, the growing family environment plays a key role in the family decision-making process. The value of women in Azerbaijani society is emphasized.

**Redaksiyaya daxil olub:** 18.01.2020